**Emin Nazim oğlu MƏHƏRRƏMOV**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı

# RƏQƏMSAL İQTİSADİYYATIN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi müasir dövrdə rəqəmsal iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsinin nəzəri aspektlərinin tədqiq edilməsidir. Bunun üçün rəqəmsal iqtisadiyyatın formalaşdırılmasının başlıca mahiyyəti açıqlanmışdır. Rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin əsas prinsipləri və prioritetləri verilmişdir. Müasir şəraitdə rəqəmsal iqtisadiyyatın inkişafının intensivləşdirilməsi üzrə bir sıra tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Tədqiqatın metodu kimi bir sıra elmi metodlardan, o cümlədən abstraksiya, deduksiya, induksiya, analiz, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla yanaşı, rəqəmsal iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsinə dair müxtəlif tədqiqatçıların elmi əsərlərində verilən müddəalar nəzərə alınmışdır.

Tədqiqatın nəticələri ilə bağlı qeyd edə bilərik ki, işdə əldə olunmuş elmi nəticələrdən ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi tədbirlərinin hazırlanmasında və həyata keçirilməsində istifadə olunması imkanları vardır.

**Açar sözlər**: rəqəmsal iqtisadiyyat, rəqəmsal iqtisadiyyatın formalaşdırılması problemləri, rəqəmsal iqtisadiyyatın inkişaf istiqamətləri, rəqəmsal iqtisadiyyatın inkişaf perspektivləri.

**UOT:** 338.364
**JEL:** O14; O33; Q55; D83
**DOI:** https://doi.org/ 10.54414/ WMCP5751

## Giriş

XX əsrin ortalarından etibarən rəqəmsal texnologiyalar iqtisadi inkişafda mühüm rolunu artıraraq transformasiya xarakterli dəyişikliklərə qədəm qoymuşdur. Elmi və texnoloji prosesin inkişafındakı sıçrayış iqtisadi artımı təşviq edən, müəssisə və təşkilatlar üçün yeni imkanlar açan, məhsuldarlığın artmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə töhfə verən, rəqabət qabiliyyətini artıran vahid informasiya məkanı yaratmağa imkan verdi ki belə bir məkan rəqəmsal iqtisadiyyatdır. Rəqəmsal iqtisadiyyat rəqəmsal marketinq kommunikasiyalarının yaradılması vasitəsilə sahibkarlar üçün yeni imkanlar açır. Bu gün rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalardan, o cümlədən internet vasitəsilə nağdsız əməliyyatlardan istifadə etməklə fəaliyyət göstərən iqtisadiyyatdır

Rəqəmsal iqtisadiyyat dördüncü qloballaşma prosesinin - rəqəmsal transformasiyanın nəticəsidir ki, bu da qlobal virtuallaşma əsasında dünya iqtisadiyyatının strukturunda əsaslı dəyişiklikdən ibarətdir. Biznes mühitinin ən son şərtlərinə cavab vermək üçün müəssisələr rəqəmsal inkişaf yolunu seçirlər. Belə seçim onlara uzunmüddətli perspektivdə yüksək iqtisadi inkişaf templərini və əməliyyat səmərəliliyini təmin etməyə kömək edir.

### Rəqəmsal iqtisadiyyatın yaradılması və inkişafı proseslərinə nəzəri yanaşmalar

Müasir dövrdə rəqəmsal iqtisadiyyatın və yayılması bütövlükdə cəmiyyətin inkişaf trayektoriyasını müəyyənləşdirir, habelə insanların həyatında əsaslı dəyişikliklərə səbəb olur. Hazırda cəmiyyət təkcə rəqəmsal texnologiyaların inkişafı və yayılması ilə kifayətlənməməli, habelə ənənəvi bazarların yoxa çıxması, bəzi peşələrin avtomatlaşdırılmış sistemlərlə əvəzlənməsi, rəqəmsal məlumatların təhlükəsizliyinə təhdidlər və s. daxil olmaqla rəqəmsallaşmanın artan mənfi nəticələrinin öhdəsindən gəlməlidirlər. Dar mənada rəqəmsallaşma dedikdə, informasiyanın rəqəmsal formaya çevrilməsi nəzərdə tutulur ki, bu da əksər

hallarda xərclərin azalmasına, yeni imkanların yaranmasına, geniş mənada isə informasiyanın rəqəmsal formaya çevrilməsinə əsaslanan iqtisadiyyatın və cəmiyyətin inkişafında müasir qlobal tendensiya kimi başa düşülür [1, s.125]. Rəqəmsallaşma dedikdə, müvafiq platforma və texnologiyalardan istifadə etməklə reallaşdırılan məlumatların təqdim edilməsinin, işlənməsinin və ötürülməsinin analoq formasından rəqəmsal formaya keçid başa düşülür. Əsas üstünlükləri bunlardır: məlumatların toplanması xərclərini azaltmaqla xidmətin keyfiyyətinin yüksəldilməsi; şirkətlərin yeni bazar imkanlarından istifadəsinin sürətləndirilməsi; rəqəmsal cihazlar vasitəsilə iş proseslərinin sürətləndirilməsi və sadələşdirilməsi və s.

Rəqəmsal texnologiyaların inkişafı sayəsində istehlakçılar ehtiyac duyduqları xidmətləri tez bir zamanda ala və onlayn mağazalarda daha ucuz qiymətə məhsullar əldə edərək pula qənaət edə bilirlər. Rəqəmsallaşmanın aktuallığı sosial kommunikasiyaların miqyasının genişlənməsi ilə bağlıdır. Rəqəmsal platformalar və şəbəkələrdən istifadə edərək, təchizatçılar və istehlakçılar vasitəçilərsiz qarşılıqlı əlaqə qurur, mübadilə proseslərinin sürəti artır. Rəqəmsal iqtisadiyyat nisbətən yeni anlayışdır və əslində iqtisadiyyatın, dövlət idarəçiliyinin və bütövlükdə cəmiyyətin inkişafı üçün əsasdır. Rəqəmsal iqtisadiyyatın əsasını 1990-cı illərdə yaranan İnternet təşkil edir. İKT-nin inkişafı sayəsində iqtisadi sistemdə gələcək dəyişikliklər üçün ilkin şərtlər yaradır. Rəqəmsal texnologiyalardan geniş istifadə potensial xərclərin azaldılması, cəmiyyətdə və iqtisadiyyatda proseslərin optimallaşdırılması, yeni sənaye sahələrinin inkişafı üçün böyük önəm daşıyır. Bu baxımdan bir çox ölkələr rəqəmsal inkişafı yüksək prioritet kimi müəyyənləşdirir və iqtisadiyyatın, eləcə də cəmiyyətin rəqəmsallaşdırılması istiqamətində kompleks tədbirlər reallaşdırır. Rəqəmsal iqtisadiyyat insanlar, müəssisələr, avadanlıqlar, məlumatlar və proseslər arasında onlayn əlaqə nəticəsində yaranan iqtisadi fəaliyyətdir. Rəqəmsal iqtisadiyyatın əsasını mobil texnologiya və İnternetin nəticəsi olan insanların, təşkilatların və maşınların artan qarşılıqlı əlaqəsinə istinad edən hiper əlaqə təşkil edir. Rəqəmsal iqtisadiyyat, demək olar ki, hər şey haqqında çoxlu sayda maşınla oxuna bilən məlumatı toplamaq, istifadə etmək və təhlil etmək qabiliyyətini inkişaf etdirərək, inanılmaz sürətlə inkişaf etməyə davam edir [2, s.9].

Müasir dünyada rəqəmsal iqtisadiyyatın rolunu düzgün təhlil etmək və diqqət mərkəzində saxlamaq lazımdır. Rəqəmsal iqtisadiyyat mövcud məlumatların elektron formata çevrilməsidir və müxtəlif təşkilatlarda toplanmış məlumatlar arasında keçidi asanlaşdırır. Rəqəmsal iqtisadiyyat rəqəmsal informasiya texnologiyalarının, o cümlədən onlayn xidmətlər, elektron ödənişlər, e-ticarətin inkişafı ilə birbaşa əlaqəli fəaliyyətdir. Rəqəmsal iqtisadiyyat texnologiyanın inkişafı və onun həyatın bütün sahələrinə nüfuz etməsi prosesində yaranmışdır və onun inkişafının ilkin mərhələsini postindustrial cəmiyyət adlandırmaq olar. Rəqəmsal iqtisadiyyat iqtisadi inkişafın müəyyən mərhələsi kimi nəzərdən keçirilir ki, bu da informasiya kimi istehsal amili ilə çox sıx bağlıdır. Dünyada rəqəmsal iqtisadiyyatın müəyyənləşdirilmiş vahid tərifi yoxdur ki, bu da bu fenomenin çox yönlülüyünü sübut edir [3, s.171].

Qeyd edək ki, “Rəqəmsal iqtisadiyyat” anlayışı hələ 1995-ci ildə Don Tapskot tərəfindən elmi istifadəyə daxil edilmişdir. Klassik mənada bu termin rəqəmsal texnologiyalara əsaslanan iqtisadiyyatdır ki, bu da “internet iqtisadiyyatı”, “yeni iqtisadiyyat” və ya “veb iqtisadiyyat” kimi anlayışlarla eyniləşdirilir. “Rəqəmsallaşma” və “rəqəmsal iqtisadiyyat” anlayışları arasındakı əlaqəni müəyyənləşdirmək də lazımdır. Belə ki, rəqəmsallaşma ümumi iqtisadiyyatın və cəmiyyətin inkişafını müəyyən edən və rəqəmsal iqtisadiyyatı formalaşdıran qlobal inkişaf tendensiyasıdır və rəqəmsal kompüter texnologiyalarının istifadəsinə əsaslanır. O, uzunmüddətli perspektivdə rəqabət üstünlüklərinin təmin edilməsi vasitəsi və cəmiyyətin sosial-iqtisadi həyatının sürətləndiricisi, həmçinin ÜDM-in artımının əsas drayveri kimi çıxış edir. Bir çox İT üzrə tədqiqatçılar “rəqəmsal iqtisadiyyat” anlayışının XX əsrin 90-cı illərində meydana gəldiyi qənaətindədirlər. Bir qrup tədqiqatçılar rəqəmsal iqtisadiyyat konsepsiyasının 1995-ci ildə N.Neqroponte tərəfindən formalaşdırıldığını qeyd edirlər Rəqəmsal iqtisadiyyat konsepsiyasının mükəmməl təriflərindən birini məhz məşhur İT üzrə tədqiqatçısı N. Neqroponte vermişdir. O, rəqəmsal iqtisadiyyatı atom

hərəkətindən bitlərin hərəkətinə keçid prosesi kimi xarakterizə etmişdir [4, s.175].

Bunlarla bərabər, Beynəlxalq Valyuta Fondu rəqəmsal iqtisadiyyatı İKT, mal və xidmətlər, onlayn platformalar və platforma əsaslı iqtisadi fəaliyyətlər (məsələn, paylaşma iqtisadiyyatı) daxil olmaqla rəqəmsallaşma fəaliyyətinin bir növü kimi müəyyənləşdirmişdir [5, s.14]. Dünya Bankı, "rəqəmsal iqtisadiyyat sürətlənmiş iqtisadi inkişaf üçün yeni paradiqmadır" fikrini irəli sürmüşdür. Müasir araşdırmalardan görünür ki, rəqəmsal iqtisadiyyat bəşər cəmiyyətinin müasir inkişaf reallıqları baxımından obyektiv zərurətdir. Onun yaranması ilə əlaqədar olaraq qanunlar və sahə iqtisadiyyatında baş vermiş tendensiyalar dəyişir. Rəqəmsallaşmanın təsiri altında bazar iqtisadiyyatının əsas müddəalarında, biznesin ənənəvi təşkili formalarında dəyişikliklər baş verir [6, s.142]. Mançester Universitetinin alimləri R. Buxt və R. Hiks rəqəmsal iqtisadiyyatın müxtəlif təriflərini onların zamanla inkişafı nöqteyi-nəzərindən təhlil etməyə cəhd etmişlər. Onlar belə qənaətə gəliblər ki, bütün nəzərdən keçirilən təriflər rəqəmsal iqtisadiyyatın əsası kimi rəqəmsal texnologiyalara üstünlük verilir. Lakin rəqəmsal iqtisadiyyatın təriflərində dörd əsas yanaşma müəyyənləşdirlir: resurs yönümlü, prosedur və ya axın yönümlü, struktur və biznes yönümlü. Tədqiqatçılar rəqəmsal texnologiyaların iqtisadiyyatda tətbiq dairəsinin genişləndirilməsi prosesini rəqəmsal iqtisadiyyatın özündən ayrıca nəzərdən keçirir və onu daha geniş rəqəmləşdirilmiş iqtisadiyyat çərçivəsinə daxil edirlər. Rəqəmsal iqtisadiyyat sayəsində baş verən dəyişikliklərin çoxsaylı siyahısını təqdim edən R. Buxt və R.Hiks bu anlayışın təriflərinin müxtəlifliyini vurğulayaraq, onun ümumi iqtisadiyyatın bir hissəsi olduğu ilə bağlı yanaşmaya sadiq qalırlar [7, s.166]. Azərbaycanlı tədqiqatçı T.A.Həsənovaya görə, rəqəmsal iqtisadiyyat ETT şəraitində iqtisadi əlaqələrin inkişafının obyektiv prosesi kimi İKT-yə əsaslanan iqtisadiyyatda institusional kateqoriyaları təmsil edir və əhalinin rifahının və yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan verir ki, bu da ölkənin iqtisadi təhlükəsizliyinə töhfə verir [8, s.8].

Rəqəmsal iqtisadiyyatın konseptual əsasları ilə bağlı aparılan araşdırmalara ümumiləşdirərək demək olar ki, rəqəmsal transformasiya malların istehsalı, paylanması, mübadiləsi və istehlakı ilə bağlı iqtisadi münasibətlərdə sistemli və kompleks dəyişiklikdir. Bu proses rəqəmsal infrastrukturdan və informasiya texnologiyalarından istifadə etməklə fərdlərin ehtiyaclarının maksimum şəkildə ödənilməsini müəyyənləşdirir.

**Müasirdövrdə rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin aktual məsələləri**

Qeyd edək ki, rəqəmsal iqtisadiyyat İKT-dən istifadə nəticəsində insanların bütün fəaliyyət sahələrinin transformasiyası ilə əlaqədar dünya iqtisadi sisteminin inkişafının gələcək mərhələsidir. İnternetin və digər innovativ texnologiyaların yayılması göstərir ki, onların qlobal iqtisadiyyata təsirini nəzərdən qaçırmaq olmaz. Bugünkü hərtərəfli rəqəmsallaşma kontekstində şirkətlər bazar dəyişikliklərinə çevik uyğunlaşmağa və öz taktikalarını təkmilləşdirməyə məcburdurlar. Hesablamalara görə, İƏT-ə üzv ölkələrin rəqəmsal iqtisadiyyatı ÜDM-in təxminən 6%-ni təşkil edir, İsveçdə isə bu rəqəm demək olar ki, 8%-ə çatır. Rəqəmsal iqtisadiyyat e-ticarət vasitələrindən istifadə edir və onlar vasitəsilə mal və xidmətlərin ticarəti üçün imkanı yaradır. Rəqəmsal iqtisadiyyatın əsas funksiyaları aşağıdakılardır: yeni sənaye və bazarların yaradılması; əmək məhsuldarlığı üçün şəraitin yaxşılaşdırılması; iqtisadi sektorun sürətli inkişaf və s.

Rəqəmsal iqtisadiyyat iqtisadi inkişaf tempini, istehsalın keyfiyyətini və əmək resurslarının fəaliyyətini tənzimləyir [9, s.224]. Rəqəmsal iqtisadiyyat real iqtisadiyyatdan fərqləndirici xüsusiyyətlərə malikdir: 1. Rəqəmsal iqtisadiyyatın virtuallığı. Rəqəmsal iqtisadiyyat yalnız müxtəlif daşıyıcılarda saxlanılan elektron siqnalların və məlumatların toplusu olan virtual dünyada mövcud ola bilər; 2. İnformasiya texnologiyalarından və telekommunikasiya şəbəkələrindən asılılıq. Rəqəmsal iqtisadiyyatla real iqtisadiyyat arasındakı əsas fərq budur. İnformasiya texnologiyaları və telekommunikasiya yox olarsa, rəqəmsal iqtisadiyyat qeyri-mümkün olacaq, çünki virtual iqtisadi fəaliyyətin bütün formaları onlardan asılıdır. 3. Fərdiləşdirmə. Rəqəmsal iqtisadiyyat hər bir fərdi istehlakçının ehtiyac və tələblərinə cavab verən mal və xidmətlərin istehsalına imkan verir; 4. Yüksək artım templəri. İnternet mal və xidmətlərə əlçatanlığı asanlaşdırır. Bu, məhsullara tələbatın artmasına və rəqəmsal iqtisadiyyatın böyüməsinə səbəb olur; 5. Virtual məhsullar və elektron pullar. Onlar rəqəmsal iqtisadiyyatın xarakterik xüsusiyyətidir və real iqtisadiyyatda mövcud ola bilməzlər. Q.B.Kleiner

rəqəmsal iqtisadiyyatın iki xüsusiyyətini müəyyənləşdirmişdir: birincisi, əsas kimi rəqəmsal texnologiyalardan istifadə edilməsi, ikincisi, real proseslərin rəqəmsal modellərlə əvəzlənməsi. Müəllif rəqəmsal iqtisadiyyatın özünü istehsal, paylama, mübadilə və istehlak prosesləri üçün əsas kimi rəqəmsal texnologiyalardan istifadə ilə xarakterizə olunan iqtisadiyyatın vəziyyəti və ya inkişaf mərhələsi vasitəsilə müəyyənləşdirməyi təklif edir [10, s. 21].

Məlumdur ki, rəqəmsal iqtisadiyyatın fərqli xüsusiyyəti sayəsində İKT vasitəsilə onun ən qiymətli resursu olan informasiya yaradılır, saxlanılır, ötürülür və emal olunur. Rəqəmsal iqtisadiyyat hesabına istənilən insan üçün yeni biliklər əldə etmək, təhsil almaq, özünü təkmilləşdirmək və yeni peşə fəaliyyət növlərinə yiyələnmək imkanları açılır [11, s.46-50]. Göründüyü kimi, müxtəlif tədqiqatçılar bir-biri ilə əlaqəli kateqoriyalardan olan məlumatların təhlilinə əsaslanaraq belə qənaətə gəlirlər ki, rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyaların fəal tətbiqi ilə yeni tipli sosial münasibətlərə malik iqtisadiyyatın inkişafında növbəti təkamül mərhələsidir. Onlar rəqəmsal iqtisadiyyatı rəqəmsal transformasiyadan keçən, rəqəmsallaşmaya əsaslanan istehsal münasibətləri və mexanizmləri sistemi kimi müəyyənləşdirir və təqdim edirlər. Əksər tədqiqatçıların fikrincə, iqtisadiyyatın rəqəmsallaşdırılmasının əsas məqsədləri aşağıdakılardır: 1) əhaliyə və sahibkarlıq subyektlərinə dövlət idarəçiliyi və dövlət xidmətlərinin göstərilməsi sahələrində rəqəmsal texnologiyaların tətbiqi; 2) dövlət birliklərinin rəqəmsal iqtisadiyyatın inkişafı üzrə razılaşdırılmış siyasətin həyata keçirilməsi üçün milli mexanizmin işlənib hazırlanması; 3) sahibkarlıq subyektləri, elm və təhsil ictimaiyyəti, dövlət və vətəndaşlar arasında açıqlığın, şəffaflığın, idarəetmənin keyfiyyətinin yüksəldilməsi; 4) yüksək texnologiyalı biznesin inkişafı üçün zəruri və kifayət qədər institusional və infrastruktur şəraitinin yaradılması; 5) ölkə iqtisadiyyatının milli və qlobal səviyyədə rəqabət qabiliyyətinin artırılması; 6) rəqəmsal məkanda malların, xidmətlərin, kapitalın və əməyin sərbəst hərəkətinin təmin edilməsi və s.

Rəqəmsal iqtisadiyyatın çoxsaylı təriflərini ümumiləşdirərək bu anlayışı aşağıdakı kimi şərh etmək olar: insanın bütün fəaliyyət sahələrində rəqəmsal texnologiyaların informasiyanın toplanması, saxlanması, emalı, transformasiyası və ötürülməsi məqsədilə fəal tətbiqi və təcrübədə istifadəsi ilə xarakterizə olunan iqtisadiyyat növü kimi; virtual məkanda rəqəmsal mal və xidmətlərin istehsalı və ticarətinin reallaşdırılması məqsədilə milli iqtisadiyyatın bir qolu kimi iqtisadi fəaliyyətlərin məcmusu kimi; real vaxt rejimində rəqəmsal İKT-dən və internetdən istifadəyə əsaslanan təşkilati-texniki və sosial-iqtisadi münasibətlər sistemi kimi.

Fikrimizcə, rəqəmsal iqtisadiyyat rəqəmsal (virtual) əmtəə və xidmətlərin istehsalı üzrə iqtisadi fəaliyyət olmaqla yanaşı, rəqəmsal proseslərə inteqrasiya olunmuş müştərilərin ehtiyaclarının ödənilməsinin genişləndirilməsi yolu ilə onun fəaliyyət göstəricilərində artımın əldə olunduğu iqtisadiyyatdır. Rəqəmsal iqtisadiyyat mal və xidmətlərin yaradılması, paylanması və istehlakı üçün informasiya texnologiyaları və rəqəmsal resurslardan istifadə ilə bağlı proseslərin məcmusudur. Elektron ticarət, rəqəmsal platformalar, İnternet xidmətləri, onlayn təhsil, maliyyə texnologiyaları və s. daxil olmaqla, geniş sənaye və fəaliyyət sahələrini əhatə edir.

Bəşəriyyətin indiki inkişaf mərhələsində rəqəmsal iqtisadiyyata keçid zərurəti hər kəs tərəfindən qəbul edilir. Bu gün rəqəmsal iqtisadiyyat real iqtisadiyyatın sürətlə inkişaf edən ayrılmaz hissəsidir maddi istehsal və göstərilən xidmətlərin keyfiyyəti ondan xeyli dərəcədə asılıdır. İndiyə qədər elmi ictimaiyyət "Rəqəmsal iqtisadiyyat" konsepsiyasının vahid tərifi hələ inkişaf etdirməmiş, bu konsepsiyanın birmənalı, ümumi qəbul edilmiş və çox istifadə olunan tərifi təqdim edilməmişdir. Bu anlayış mürəkkəb, çoxşaxəli bir fenomendir və daha da inkişaf və dəqiqləşdirmə tələb edir, çünki rəqəmsal iqtisadiyyatın müəyyənləşdirilməsində bəzi müəlliflər iqtisadiyyatda İKT-yə diqqət yetirir, digərləri iqtisadiyyat və istehsala, digərləri isə sosial münasibətlərə diqqət yetirməyi təklif edirlər. Rəqəmsal iqtisadiyyatı anlamaq üçün vahid yanaşmanın inkişafı biznes, elm və hökumətin fəal qarşılıqlı əlaqəsi ilə kompleks şəkildə mümkündür.

Hesab edirik ki, rəqəmsal iqtisadiyyat konsepsiyası inkişaf mərhələsindədir ki, məhz bu da onun mahiyyət və məzmunun öyrənilməsinə çoxsaylı yanaşmaların yaranmasına səbəb olur: 1. Rəqəmsal iqtisadiyyatı İKT-dən geniş istifadə etməklə subyektlərin qarşılıqlı əlaqəsini təmin edən

ənənəvi bazarların məcmusu kimi nəzərdən keçirməyi nəzərdə tutur. 2. Fərdi kompüterlərin və digər elektron cihazların elementar bazasının formalaşdırılmasında, habelə sosial inkişafın informasiyalaşdırılması üçün zəruri olan texniki və proqram təminatı komplekslərinin hazırlanmasında ixtisaslaşan xalq təsərrüfatının unikal sahəsi kimi təqdim edilməsi ilə bağlıdır. 3. Rəqəmsal iqtisadiyyatı insan həyatının bütün sahələrinin informasiyalaşdırılmasına əsaslanan sosial münasibətlər sisteminin təşkili və rəsmiləşdirilməsinin innovativ üsulu kimi nəzərdən keçirilir. 4. Rəqəmsal iqtisadiyyat sosial-iqtisadi inkişafın təkrar istehsalı və idarə olunması proseslərinin informasiya təminatı texnologiyaları sistemi kimi təqdim olunur. 5. Rəqəmsal texnologiyaların kütləvi istifadəsi nəticəsində müsbət transformasiya effektlərinin yaradılmasını təmin edən alətlər sistemi kimi özünü göstərir. 6. Subyektlərarası qarşılıqlı əlaqə və reproduksiya prosesləri sisteminin rəqəmsallaşdırılmasının əsaslı şəkildə fərqli modelinə keçidi təmin edən sosial inkişafın modernləşdirilmiş paradiqması kimi çıxış edir. 7. Reproduktiv proseslərin səmərəliliyinin və insan mühitinin keyfiyyətinin artırılmasını təmin edən formalaşmış virtual mühit kimi özünü göstərir. 8. Təsərrüfat subyektləri arasında qarşılıqlı əlaqənin informasiyalaşdırılması kimi çıxış edir. Fikrimizcə, rəqəmsal iqtisadiyyatın mahiyyətinin açılmasına bu cür yanaşmalar bizə tədqiq olunan konsepsiyanın əsas aspektlərinin başa düşülməsinə imkan verir.

Qeyd edək ki, rəqəmsal iqtisadiyyat mürəkkəb strukturlaşdırılmış tədqiqat obyektidir və hazırda onun bir neçə tətbiq sahəsi mövcuddur: 1. Elektron ticarət – internet vasitəsilə reallaşdırılan ticarət; 2. Elektron nağd pul – bu, virtual puldur; 3. Elektron marketinq – şirkətin elektron vasitələrin istifadəsi ilə bağlı marketinq fəaliyyətinin məcmusu; 4. Elektron bankçılıq – müştəri tərəfindən məsafədən ötürülən sifarişlər əsasında bank xidmətlərinin göstərilməsi texnologiyası; 5. Elektron sığorta xidmətləri – internet vasitəsilə sifariş verilə bilən sığorta xidmətləri [12, s. 27]. Daimi texnoloji dəyişikliklər və təkmilləşdirmələr sayəsində rəqəmsal iqtisadiyyat biznes, hökumət və bütövlükdə cəmiyyət üçün yeni imkanlar təqdim edir. Rəqəmsal iqtisadiyyat daxilində əsas anlayışlara bunları aid etmək mümkündür: 1. Rəqəmsal texnologiyalar - informasiyanın emal edilməsi, ötürülməsi və saxlanılması üçün istifadə olunan proqram məhsulları, aparat və kommunikasiya infrastrukturlarının məcmusudur. Bu cür texnologiyalara misal olaraq süni intellekt, blokçeyn, əşyaların interneti, bulud texnologiyaları və s. göstərilə bilər. 2. Rəqəmsal resurslar - rəqəmsal iqtisadiyyatda dəyər yaratmaq üçün istifadə olunan məlumatlar, informasiya və biliklərdir. Onlar strukturlaşdırılmış və ya strukturlaşdırılmamış ola bilər, sosial şəbəkələr, onlayn platformalar, sensorlar və s. kimi müxtəlif mənbələrdən toplanılır və 3. Rəqəmsal transformasiya - təşkilatların biznes proseslərini təkmilləşdirmək və rəqabət üstünlüyünə nail olmaq üçün ənənəvi metodlardan rəqəmsal texnologiyalardan istifadəyə keçid prosesidir. Bu, təşkilat mədəniyyətinin, biznes modellərinin və şirkət strategiyalarının dəyişdirilməsini əhatə edir.

Ümumilikdə, rəqəmsal iqtisadiyyatın prinsipləri kimi bunları daha çox fərqləndirmişik: 1. İnnovativlik - yeni texnologiya və yanaşmaların daimi tətbiqi yeni məhsul və xidmətlərin yaradılmasına, müəssisələrin məhsuldarlığının yüksəldilməsinə və dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına imkan verir. 2. Açıqlıq – rəqəmsal iqtisadiyyat informasiyaya sərbəst çıxış, açıq standartlar və resursların paylanması prinsipinə əsaslanır, kollektiv zəka və bilik mübadiləsini təşviq edir. 3. Rəqabətlilik - rəqəmsal iqtisadiyyat innovasiyaları təşviq edən, mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, qiymətlərin aşağı salınması üçün rəqabət mühitinin yaranması və inkişafı üçün yeni imkanlar təqdim edir. 4. Məlumatların təhlükəsizliyi - rəqəmsal iqtisadiyyatın böyük həcmli məlumatlarla işləməyə əsaslanması səbəbindən məlumatların təhlükəsizliyinin və istifadəçilərin şəxsi məlumatlarının qorunmasının təmin edilməsi vacibdir və s.

**Nəticə**

Nəticə olaraq, rəqəmsal iqtisadiyyat konsepsiyasını iqtisadi artım və informasiya cəmiyyətinin inkişafı üçün hərəkətverici qüvvə kimi qəbul etmək olar və bir sıra amillər diqqət çəkir:

Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyaların və rəqəmsal informasiyanın istifadəsi ilə bağlı iqtisadi sistemin inkişafında yeni mərhələni təmsil edir, məhsuldarlığı artırmaq, ünsiyyət vaxtı və xərcləri azaltmaq, innovasiyaları stimullaşdırmaq və yeni iş yerlərinin yaradılması kimi bir çox üstünlükləri vardır. İqtisadiyyatın rəqəmsallaşması cəmiyyətə etibarlı rəqəmsal mühit yaratmağa,

əməliyyatları optimallaşdırmağa və genişləndirməyə, onları ardıcıl və təhlükəsiz etməyə kömək edə bilər;

Rəqəmsallaşma sayəsində innovasiyaların inkişafını sürətləndirmək, startapları dəstəkləmək, hər kəsə proqramlaşdırmanın əsaslarını öyrətmək, iqtisadiyyat sahəsində rəqəmsal texnologiyaların tətbiqi mümkün olur;

– Qeyd olunan şərtlərin reallaşdırılması dövlətin bütün iqtisadi sisteminin məhsuldarlığını artıracaq və qlobal rəqəmsal dünyada əlavə rəqabət üstünlükləri əldə etməsinə imkan verə bilər və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Магомедов, Р.М. Цифровая экономика: сущность и последствия / Р.М. Магомедов // Экономика: вчера, сегодня, завтра. – 2020. – Т. 10, № 2-1. – С. 121-127.

2. Жумалиева, А.А. Развитие цифровой экономики / А.А. Жумалиева, К.А. Алымбеков // М. Рыскулбеков атындагы Кыргыз экономикалык университетинин кабарлары. – 2021. – № 1(50). – С. 9-11.

3. Гусейнова, Ф.Э. Теоретические подходы к цифровой экономике и перспективы внедрения цифрового юаня в Китае / Ф.Э. Гусейнова, А.А. Казанцев // Скиф. Вопросы студенческой науки. – 2021. – № 8(60). – С. 170-175.

4. Перловская, Н.В. Теоретические аспекты цифровизации экономики и управления / Н.В. Перловская // Вестник Луганского государственного университета имени Владимира Даля. – 2021. – № 4(46). – С. 174-179.

5. Криштаносов, В.Б. Цифровая экономика: современные направления, динамика развития, вызовы / В.Б. Криштаносов // Труды БГТУ. Серия 5: Экономика и управление. – 2020. – № 1(232). – С. 13-30.

6. Бисултанова, А.А. Теоретические основы цифровой экономики / А.А. Бисултанова // Экономика и управление: научно-практический журнал. – 2022. – № 3(165). – С. 139-142.

7. Бухт Р., Хикс Р. Определение, концепция и измерение цифровой экономики // Вестник международных организаций: образование, наука, новая экономика. - 2018. - №2. - С. 143-172.

8. Гасанов Г.А. Цифровая экономика как новое направление экономической теории / Г. А.Гасанов, Т. А.Гасанов // Региональные проблемы преобразования экономики. 2017. №6 (80). С. 4–10.

9. Ахмедова, В.С. Цифровая экономика в условиях современности / В.С. Ахмедова // Актуальные проблемы науки: взгляд студентов: Материалы Всероссийской с международным участием студенческой научной конференции. В 2-х частях, Санкт-Петербург, 18 января 2022. – С. 223-225.

10. Клейнер, Г.Б. Интеллектуальная экономика цифрового века / Г.Б. Клейнер // Экономика и математические методы. – 2020. – Т. 56. – № 1. – С. 18–33.

11. Əliyev T.Q. Rəqəmsal iqtisadiyyat: mahiyyəti və inkişaf perspektivləri. Audit, 2022, 1 (35), s.46-53.

12. Крутяева, М.В. Теоретические основы формирования цифровой экономики / М.В. Крутяева // Via Scientiarum - Дорога знаний. – 2019. – № 2. – С. 25-29.

**Emin Nazim MAGERRAMOV**
Doctoral student of Azerbaijan State Oil and Industry University

## THEORETICAL ASPECTS OF THE FORMATION AND DEVELOPMENT OF THE DIGITAL ECONOMY

**Summary**

The purpose of the research is to study the theoretical aspects of the formation and development of the digital economy in the modern era. For this purpose, the main essence of the formation of the digital economy is explained. The basic principles and priorities for the development of the digital economy are presented. In modern conditions, a number of recommendations and proposals have been given to intensify the development of the digital economy.

Scientific methods - a number of research methods, including methods of abstraction, deduction, induction, analysis, synthesis and generalization were used. In addition, the provisions set out in the scientific works of various researchers on the formation and development of the digital economy was taken into account.

Results of the research - it can be noted that there are opportunities to use the scientific results obtained in the work in the preparation and implementation of measures to develop the digital economy in our country.

**Keywords**: digital economy, problems of formation of the digital economy, directions for the development of the digital economy, prospects for the development of the digital economy.

**Эмин Назим МАГЕРРАМОВ,**
Докторант Азербайджанского Государственного
Университета Нефти и Промышленности

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ СТАНОВЛЕНИЯ И РАЗВИТИЯ ЦИФРОВОЙ ЭКОНОМИКИ

**Резюме**

Цель исследования – изучение теоретических аспектов становления и развития цифровой экономики в современную эпоху. Для этого исследована основная суть формирования цифровой экономики. Приведены главные принципы и приоритеты развития цифровой экономики. Дан ряд рекомендаций и предложений по интенсификации развития цифровой экономики в современных условиях.

Методы исследования - в качестве них использовался ряд научных методов, в том числе методы абстракции, дедукции, индукции, анализа, синтеза и обобщения. Помимо этого, были учтены положения, изложенные в научных трудах различных исследователей по вопросам становления и развития цифровой экономики.

Результаты исследования - относительно результатов можно отметить, что имеются возможности использования полученных в работе научных результатов при подготовке и реализации мер по развитию цифровой экономики в нашей стране.

**Ключевые слова:** цифровая экономика, проблемы формирования цифровой экономики, направления развития цифровой экономики, перспективы развития цифровой экономики.